# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikasında buğda toxumçuluğunun inkişaf etdirilməsi tədbirləri haqqında” 2008-ci il 19 iyun tarixli 139 nömrəli, “Yaponiya Hökumətinin 2KR Proqramı çərçivəsində ayırdığı qrantlar hesabına respublikaya gətirilmiş kənd təsərrüfatı texnikasının hüquqi və fiziki şəxslərə lizinqə verilməsindən və ya lizinq yolu ilə satışından Tərəfdaşlıq Fonduna toplanan vəsaitlərin təkrar istifadəsi Qaydaları”nın təsdiq edilməsi barədə” 2005-ci il 15 noyabr tarixli 210 nömrəli, “Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli, “Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın təsdiq edilməsi haqqında” 2018-ci il 19 dekabr tarixli 549 nömrəli qərarlarında dəyişiklik edilməsi və “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatı texnikasının, texnoloji avadanlığın, suvarma sistemləri dəsti və avadanlığının hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və ya lizinq yolu ilə satılması Qaydaları”nın təsdiq edilməsi və “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi haqqında” 2005-ci il 31 mart tarixli 58 nömrəli, “Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanları ilə təmin edilməsinə əlavə dəstək verilməsi ilə əlaqədar bəzi məsələlər barədə” 2008-ci il 22 sentyabr tarixli 226 nömrəli, “Tərəfdaşlıq Fonduna toplanmış vəsaitin hesabına alınmış kənd təsərrüfatı texnikasının bir hissəsinin “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti vasitəsilə lizinqə verilməsi və ya lizinq yolu ilə satılması barədə” 2007-ci il 25 yanvar tarixli 15 nömrəli, “Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına alınan pestisidlərin satılması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2005-ci il 29 noyabr tarixli 221 nömrəli qərarlarının ləğv edilməsi barədə**

“Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 17 avqust tarixli 1137 nömrəli Fərmanının

3.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasında buğda toxumçuluğunun inkişaf etdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 iyun tarixli 139 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 591; 2014, № 2, maddə 201; 2015, № 2, maddə 227; 2016, № 5, maddə 955; 2019, № 12, maddələr 2077, 2098) 2-ci hissəsində və 3.1-ci bəndində "Aqrolizinq" sözü "Aqroservis" sözü ilə əvəz edilsin.

2. "Yaponiya Hökumətinin 2KR Proqramı çərçivəsində ayırdığı qrantlar hesabına respublikaya gətirilmiş kənd təsərrüfatı texnikasının hüquqi və fiziki şəxslərə lizinqə verilməsindən və ya lizinq yolu ilə satışından Tərəfdaşlıq Fonduna toplanan vəsaitlərin təkrar istifadəsi Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 noyabr tarixli 210 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1070) 1-ci və 4-cü hissələri ləğv edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 oktyabr tarixli 385 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"nın "1531" kodlu sətrində "Aqrolizinq" sözü "Aqroservis" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 dekabr tarixli 549 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2745; 2019, № 3, maddə 524, № 8, maddə 1483) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın 2.1-ci bəndində "Aqrolizinq" sözü "Aqroservis" sözü ilə əvəz edilsin.

5. "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatı texnikasının, texnoloji avadanlığın, suvarma sistemləri dəsti və avadanlığının hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və ya lizinq yolu ilə satılması Qaydaları"nın təsdiq edilməsi və "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər

Kabinetinin 2005-ci il 31 mart tarixli 58 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 263; 2007, № 2, maddə 192; 2010, № 3, maddə 257, № 8, maddə 755, № 12, maddə 1128; 2015, № 10, maddə 1242; 2019, № 3, maddə 547) ləğv edilsin.

6. "Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanları ilə təmin edilməsinə əlavə dəstək verilməsi ilə əlaqədar bəzi məsələlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 22 sentyabr tarixli 226 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 872; 2013, № 7, maddə 881; 2015, № 2, maddə 227; 2016, № 1, maddə 168; 2017, № 7, maddə 1476; 2019, № 3, maddə 547, № 5, maddə 972, № 12, maddə 2077; 2020, № 4, maddə 484) ləğv edilsin.

7. "Tərəfdaşlıq Fonduna toplanmış vəsaitin hesabına alınmış kənd təsərrüfatı texnikasının bir hissəsinin "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti vasitəsilə lizinqə verilməsi və ya lizinq yolu ilə satılması barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli 15 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 59) ləğv edilsin.

8. "Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına alınan pestisidlərin satılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 29 noyabr tarixli 221 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1077; 2007, № 2, maddə 192; 2010, № 3, maddə 257; 2020, № 4, maddə 484) ləğv edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 7 dekabr 2020-ci il

№ 485